Ədəbiyyat
QƏZETİ



# "Ədəbiyyat qəzeti" həmişə o tayla bu tay arasında körpü olub

Uşaqlıqdan alışmışam. Hər şeyin kökü diqqətə söykənir. Diqqət olmasa öyrənməyin, axtarmağın heç bir mənası olmayacaq, əldə etdiklərin də unudulub gedəcək. Dünyada olan bütün kəşflərin kökündə diqqət dayanır, bütün kəşflər diqqətdən olmuş. Bax, yaxın günlərdə cənab İlham Əliyev Yazıçılar Birliyinin, "Ədəbiyyat qəzeti"nin, Bəstəkarlar İttifaqının yetmiş beş illiyinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb. Sizcə, diqqət olmasa bu sərəncamın imzalanması mümkündümü? Bu cür diqqətin yaradıcı insanların fəaliyyətinə müstəsna təsiri olur. Belə bir diqqət dövlətin ədəbiyyata, mədəniyyətə olan münasibətinin ifadəsidi, cəmiyyətə mesajıdı. Diqqətdən kənar qalan şey nə qədər parlaq olur-olsun, get-gedə öz əhəmiyyətini, rəngini itirir, adiləşir, ölgünləşir.



"Ədəbiyyat qəzeti" ilə tanışlığımın yaşı çoxdu. Mən həmişə bu qəzetin oxucusu olmuşam, əməkdaşlıq etmişəm. Xüsusən, Azərbaycan müstəqilliyini əldə edəndən sonra. "Ədəbiyyat qəzeti" həmişə o tayla bu tay arasında körpü olub, elaqələndirici vəzifəsi daşıyıb. Arazın o tayındakı edibləri bu taya, bu taydakıları o taya tanıdıb, təqdim edib, xalq bu edibləri daha çox "Ədəbiyyat qəzeti"nin vasitəsiylə tanıyıb. Mən baş redaktoru olduğum "Varlıq" dərgisini də bu istiqamətdə çıxarmağa cəhd etmişəm. İndi hərdən götürüb bu qəzetin ötən saylarını vərəqləyirəm. Cənub ədəbiyyatı səhifələri az qala yarıbayarı təşkil edir, Şəhriyarın, Səhəndin, Səməd Behrənginin, Biriyanın tanış, doğma simalarını, imzalarını görüb ilgilənirəm. Yaxın sayda Balaş Azəroğlunun müsahibəsini, Qulamrza Səbri Təbriziyə açıq məktubunu oxudum. Kaş görəydiniz ki, hansı hissləri, duyğuları keçirdim. Təəssüf ki, mən Pişəvəri hərəkatı illərində, inqilab günlərində İstanbulda təhsil alırdım, vətəndən uzaqdaydım. Mən o hadisələrdən altı-yeddi il sonra İrana qayıtdım. Ancaq hadisələrin xarabalıqlarına gəlib çıxmışdım. O hərəkatda Pişəvəriyə hər tərəfdən xəyanət etdilər. Təkləndi. Sovetlərə söykənmək, ümid bəsləmək səhv idi. Yabançılara söykənmək xətadı... Böyük aldanış oldu. Aldanıb yaşamaqdansa, şəhidlik yaxşıdı. Onu deyirdim axı, Balaş Azəroğlunun o müsahibəsi, açıq məktubu bu xatirələri yenidən oyatdı könlümdə. Qılman İlkin də xatirələrində həmin hadisələrdən bəhs etmişdi. Deməli, tarix unudulmur. "Ədəbiyyat qəzeti" həmişə bu tarixə sayğılı olub. Yaxşı haldır ki, Yazıçılar Birliyinin sədri Anar bəy də, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Ayaz Vəfalı da milli adamlardı. "Ədəbiyyat qəzeti" şəxsi bir adamın mətbu orqanı kimi yox, milli ədəbi bir qəzet kimi çıxır, tarixi, ədəbi haqları, çağdaşlığı özündə ehtiva edir. Yaxşı haldır ki, dövlət səviyyəsində bu qəzetə böyük dəstək var. Fikrimcə, böyük bir millətin ədəbi həyatının mərkəzində dayanan bir qəzetin araya-ərsəyə gəlməsində əməyi olanlar yaxşı şəraitlə təmin olunmalıdırlar ki, onlar daha vüqarla çalışa bilsinlər. Ədəbiyyat adamları xalqın ruhi qidavericiləridi. Bu sahə həmişə diqqətdə saxlanılmalıdı. Çünki gənc nəslin tərbiyəsi ədəbiyyatdan başlayır.

**Cavad HEYƏT**
*dünya şöhrətli cərrah, alim, "Ədəbiyyat qəzeti"nin redaksiya şurasının üzvü*

Ədəbiyyat qəzeti.- 2009.- 11 dekabr.- S.4.